

*"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır."*

*Ümummilli lider Heydər Əliyev*



*"Hər bir ölkənin, hər bir dövlətin bu günü və gələcəyi onun intellektual potensialından asılıdır. Azərbaycan bu yolu seçib. Əminəm ki, bugünkü, Azərbaycan gəncləri doğma Vətənimizin dəyərli vətəndaşları olacaq və ölkənin inkişafında öz sözlərini deyəcəklər."*

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*















# GİRİŞ

Gənclərin hərtərəfli inkişafı ölkənin qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Odur ki, ölkəmizin qüdrətli dövlətə çevrilməsi naminə gənclərin imkanlarından daha geniş istifadə edilməsi, həmçinin bunun üçün əlverişli şəraitin yaradılması gənclər siyasətinin əsasını təşkil edir. Gənc nəslin fiziki, sosial və mənəvi inkişafını təmin etmək, gənclərin mükəmməl bilik və bacarıqlara yiyələnmələri, yüksək səviyyədə təhsil almaları üçün hər cür şərait yaradılır. Müstəqilliyimizi qazandığımız ilk illərdən bu günə kimi qəbul olunmuş onlarla qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına təsir göstərdi. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin düzgünlüyünü bu sahədə qazanılmış uğurlu nəticələr də təsdiqləyir və bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sosial həyatın istənilən sahəsində - elm, təhsil, incəsənət, idman və s. gənclərimiz ön sıralardadır. Artıq Azərbaycan gəncliyi cəmiyyətin inkişafında fəal sosial təbəqəyə çevrilmişdir.

Gənclər təşkilatlarının fəaliyyətinə verilən dövlət dəstəyi isə onların daha məsuliyyətlə işləmələrinə, fəaliyyətlərini genişləndirmələrinə, müxtəlif layihələri həyata keçirməyə təkan verir. Yeni Azərbaycan Partiyası Gənclər Birliyi də 1995-ci ildən bu günə kimi gənclərin əsas təşkilatlandığı birliklərdən biridir. Ətrafında 250000-ə yaxın gənci birləşdirən bu qurum həmişə gənclərin həyatında fəal rol oynamağa çalışmışdır. Onların elmi fəaliyyətinə dəstək verilməsi, cəmiyyətdə daha fəal şəkildə iştiraklarının təmin olunması, asudə vaxtlarının səmərəli təşkil olunması və s. məsələlər həmişə diqqətdə saxlanılmışdır. Hər il ənənəvi şəkildə təşkil olunan yay məktəbləri 2007-ci ildən bu günə qədər gənclərin ən çox marağına səbəb olan ictimai hadisədir.

**Yay məktəblərinin məqsədi** – bütün Azərbaycan ərazisində yaşayan aktiv üzvlərimizin bir-birini daha yaxından tanımasını, onların arasında səmimi münasibətlərinin yaradılmasını, ölkədə ictimai həyatın istənilən sahəsində - siyasi, sosial və s. gedən dinamik inkişaf haqqında onlara doğru informasiyanın çatdırılmasını, məşhur siyasi xadimlər ilə onların görüşlərinin təşkil edilməsini, gələcəkdə müxtəlif sahələrdə çalışacaq olan bu gənclərə liderlik, natiqlik və s. kimi mühüm xüsusiyyətlərin aşılanmasını təmin etməkdən ibarətdir. Həmin gənclərin əksəriyyəti yay məktəblərindən sonra da tez-tez görüşür və müxtəlif sahələrdə bir-biri ilə əməkdaşlıq edirlər.

**Yay məktəbləri haqqında qısa məlumat** –2011-ci il yay məktəbləri bir ay boyunca Azərbaycanın ən gözəl guşələrində – Oğuz ("Afra" otel), Qəbələ ("Qafqaz" otel), Lerik ("Relax" otel) rayonlarında təşkil olunmuşdur. Layihənin proqramı isə rəngarəng və maraqlı tədbirlərlə zəngin idi. Əvvəlki illərə nisbətən daha çox gəncin iştirak etməsi bu yay məktəblərinin ən xarakterik xüsusiyyəti kimi qeyd oluna bilər. Təxminən 600-dən çox gənc bir ay ərzində həm istirahət etdi, həm də maraqlı diskussiyalarda iştirak etmək şansı qazandılar. Təsadüfi deyil ki, yay məktəbi çərçivəsində "Azərbaycan qlobal məkanda", "Azərbaycan gəncliyi və müasirlik", "Azərbaycan dünən, bu gün və sabah" və s. mövzularda keçirilən fikir mübadilələri müxtəlif regionlardan olan gənclərin bir-birindən maraqlı fikirləri ilə yadda qaldı. Bundan başqa "Nə, harada, nə zaman?" intellektual oyunu da iştirakçılarda həm komandada yarışmaq həyəcanı yaratdı, həm də bilik və bacarıqlarının artırılmasında misilsiz rol oynadı. Yay məktəbinin IV günü keçirilən idman oyunları da özünəməxsus xatirələrlə yaddaşlara yazıldı.

**Yay məktəbinin nəticəsi** – Gənclik dinamika, inkişaf və tərəqqi deməkdir. Əgər bir ölkənin gəncliyi savadlı, bilikli, müasir, yüksək intellektual səviyyəlidirsə, bu, o deməkdir ki, həmin ölkənin inkişafı, tərəqqisi əmin əllərdə olacaq. Məhz yay məktəbləri də gənclərdə bu və ya digər müsbət vərdişlər – natiqlik, liderlik, kollektiv çalışma qabiliyyəti və s. kimi xüsusiyyətlər aşılayır.

Üstündən nə qədər illər keçsə də, yay məktəbinin iştirakçıları arasında bu səmimi dostluqlar davam edir. Yay məktəbi onun iştirakçısı olan hər bir partiya fəalının yaddaşına qızıl hərflərlə yazılır və heç vaxt unudulmayacaq əbədi xatirəyə çevrilir. Yay məktəbinin iştirakçısı olan gənclər Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələri uğurla həyata keçirir, bu diqqət və qayğını yüksək qiymətləndirir, öz məsuliyyətini dərk edir və respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır.



**ÜMUMMİLLİ LİDERİN XATİRƏSİNƏ EHTİRAMIMIZI BİLDİRDİK, ABİDƏSİ ÖNÜNƏ TƏR ÇİÇƏKLƏR QOYDUQ.**









**OĞUZ RAYON TARİX DİYARŞÜNASLIQ MUZEYİNDƏ BU DİYAR HAQQINDA DAHA GENİŞ MƏLUMATLAR ALDIQ.**







**"AZƏRBAYCAN DÜNƏN, BU GÜN VƏ SABAH: HEYDƏR ƏLİYEV İDEYALARI ƏMƏLİ FƏALİYYƏTDƏ"- DİSKUSSİYALARDA HƏM DİNLƏDİK, HƏM FİKİRLƏRİMİZİ BİLDİRDİK.**













**“GƏNCLİK VƏ MÜASİRLİK”-**
**PROBLEMLƏRİMİZDƏN**
**DANIŞDIQ, MARAQLI FİKİR**
**MÜBADİLƏSİ APARDIQ.**









**İNTERNETDƏ SOSİAL ŞƏBƏKƏ VƏ GƏNCLİYİN BAXIŞI"- İNTERNETİN HƏYATIMIZDAKI MÜSBƏT VƏ MƏNFİ TƏSİRLƏRİNİ MÜZAKİRƏ ETDİK.**







"NƏ, HARADA, NƏ ZAMAN" İNTELLEKTUAL OYUNUNDA HƏM YARIŞDIQ, HƏM BİLİKLƏRİMİZİ ARTIRDIQ.











**“SAĞLAM BƏDƏNDƏ SAĞLAM RUH” DEVİZİ ALTINDA SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALDIQ.**





## RUMINİYANIN LİBERAL DEMOKRAT PARTİYASININ GƏNCLƏR BİRLİYİNİN (LDP) GƏNC ÜZVLƏRİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ IV TURDA OĞUZUN QONAĞI OLDU.













Mən çox şadam ki, biz Azərbaycan gəncləri məhz dövlət qayğısı daim üzərimizdə olan Müstəqil Azərbaycan Respublikasının gəncləriyik. Bu qayğı və diqqətin bir nümunəsi də artıq neçə illərdir ki, Yeni Azərbaycan Partiyası tərəfindən təşkil olunan yay məktəbləridir. Məhz bu gözəl ənənənin sayəsində mən qəlbi Azərbaycan, onun xoş müqəddəratı üçün döyünən gənclərlə tanış oldum. Demək ki, yeni dostlar qazandım. Dost və bilik isə heç vaxt tükənməyəcək var-dövlət deməkdir. Yay məktəbi layihəsi mənə və mənim simamda digər gənclərə çox dəyərli ictimai-siyasi xadimlərlə tanış olmaq, onlarla fikir mübadiləsi aparmaq şansı verdi, səmimiyyət verdi.

**Lamiyə Cəlilova**

Bu layihə gənclərin həm asudə vaxtlarının yaxşı təşkili, həm bir-birilə səmimi münasibətinin qurulması baxımından önəmlidir. Yay məktəbləri partiyanın üzvü olan gənclərin bir-birini tanıması, onlar arasında əlaqələrin daha da möhkəmlənməsi, həmçinin təcrübənin öyrənilməsi baxımından çox əhəmiyyətlidir. Biz bu layihə çərçivəsində yeni dostlar qazandıq, yeni mülahizələr eşitdik, fikir mübadiləsi apardıq. Yeni Azərbaycan Partiyasının bu istiqamətdə gördüyü işlər, təşkil etdiyi tədbirlər çox təqdirəlayiqdir.



**Jalə Sadıqova**



YAP Gənclər Birliyinin "Yay məktəbi" layihəsi ilə əlaqədar olaraq Oğuz rayonuna təşkil edilən 5 günlük səfərin iştirakçısı olmaq mənim üçün olduqca maraqlı idi. YAP-ın fəal gənclərindən ibarət 51 nəfərlik qrupun bu səfəri olduqca səmərəli və yadda qalan oldu. Səfərimizin ilk günündə Ümummilli lider Heydər Əliyevin rayon ərazisində yerləşən abidəsini ziyarət etdik. Daha sonra Oğuz rayon Tarix Diyarşünaslıq Muzeyi ilə tanışlıq baş tutdu. Burada gənclərimizə müxtəlif eksponatlar barədə ətraflı məlumat verildi. Eyni zamanda, Oğuzda yeni aşkarlanan və arxeoloji qazıntıları hələ də davam edən kurqanı ziyarət etdik. Səfərin növbəti günündə Oğuzun Xal Xal adlanan istirahət guşəsində olduq. Burada rayon gənclərinin də iştirakı ilə təbiət qoynunda birgə nahar təşkil olundu. YAP Oğuz qrupu adından ölkə Prezidenti cənab İlham Əliyevə biz gənclərə göstərdiyi diqqət və qayğıya görə təşəkkür teleqramı göndərdik.

**Kubra Əliyarlı**

Elə Oğuza gedərkən yolda başlamışdı bir çox uşaqlarla dostluğumuz... Oğuzda qaldığımız müddətdə də yeni dostlar qazandım, bu gün də bu dostluqlar davam edir. 5 gün ərzində mehriban kollektivlə bir yerdə olmaq, geniş düşüncəli insanların arasında olmaq mənim də dünyagörüşümə öz töhfəsini verdi. Millət vəkili Asəf Hacıyevlə olan diskussiyalarımız fikirlərimizə yeniliklər gətirdi, onun verdiyi məsləhətlər indi də işlərimizdə uğurlar gətirir.



**Nicat Əmiraslanov**



Millət vəkili Əli Əhmədov, Mübariz Qurbanlı və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, millət vəkili Şəmsəddin Hacıyev Oğuz rayonuna gənclərimizlə görüşə gəlmişdilər. Onlar gənclərimizlə H.Əliyev siyasəti haqqında, YAP-ın gənclərimizi necə yüksək dəyərləndirdiyi, onların inkişafı, dünya görüşlərinin artırılması məqsədi ilə yaratdığı imkanları haqqında müzakirələr apardılar. Müzakirələrdən sonra Oğuz-1 fəal gəncləri ilə xatirə şəkli çəkildi. Nahardan sonra sərbəst saatda gənclərimiz üçün təşkil olunmuş musiqili əyləncə, xüsusilə də Oğuz rayonun canlı instrumental ansamblın gözəl rəqs havaları ilə bizləri yüksək səviyyədə əyləndirdi. Hətta, qonaqlarımızın gəlib biz gənclərlə rəqs etməsi bizlərə böyük ruh yüksəkliyi verdi.

5 gün ərzində tanıdığımız gənclərimizlə çox isti münasibətdə olduq. Sanki 5 gün deyil, 5 ildir bir-birimizi tanıyırdıq. Hal-hazırda bu səmimi münasibətlərimiz davam etməkdədir. Bunun üçün YAP-a dərin təşəkkürümüzü bildiririk. YAP-ın çox böyük ailə olduğuna bir daha şahid olduq.

**Məhəmməd Əsədov**



Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin "Yay məktəbi" layihəsinin xətti ilə Oğuz rayonunda istirahət etdiyim müddət ərzində bir daha Azərbaycanımızın təbiətinin zəngin olmasına, Azərbaycan gənclərinin sağlam düşüncəli, vətənpərvər, intellektual səviyyələrinin geniş əhatəli olduğuna əmin oldum. Mən demokratik, zəngin, qüdrətli ölkənin vətəndaşı olmağımla qürur duyuram!

**Mahirə Babayeva**







**ÜMUMMİLLİ LİDERİN XATİRƏSİNƏ EHTİRAMIMIZI BİLDİRDİK, ABİDƏSİ ÖNÜNƏ TƏR ÇİÇƏKLƏR QOYDUQ.**

## "AZƏRBAYCAN QLOBAL MƏKANDA" - FİKİRLƏRİMİZİ BÖLÜŞDÜK, DİSKUSSİYALARDA İŞTİRAK ETDİK.













**NƏ, HARADA, NƏ ZAMAN.**







**ASUDƏ VAXTLARIMIZDA HƏM İSTİRAHƏT ETDİK,
HƏM DƏ ƏYLƏNDİK.**







Yeni Azərbaycan Partiyası tərəfindən Yay məktəblərinin təşkili və keçirilməsi artıq ənənə halını alıb. Bir gənc kimi bu yay məktəblərinin iştirakçısı olduğum üçün qürur duyuram. Yay məktəbləri mənim, intellektual səviyyəmin yüksəlməsinə, dostlarımın çoxalmasına, bir sözlə hərtərəfli inkişafıma səbəb oldu. Belə layihələrin davamlı olmasını arzulayıram.

**Rahil Şükürov**

Layihə çərçivəsində müxtəlif diskussiya və dəyirmi masalarda iştirak etdik, sosial şəbəkələrdə "Yay məktəbi" ilə əlaqədar geniş proqramlar ortaya qoyuldu . Həmçinin, gənclərin asudə vaxtının səmərəli təşkili ilə əlaqədar hazırlanmış proqramlarda iştirak bir-birimizi tanımağımıza imkan verdi. İstirahətimizin daha maraqlı keçməsi üçün Qəbələnin görməli yerlərinə ekskursiyalar da təşkil olundu. Ən yadda qalan isə iyulun 14-də Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişi ilə əlaqədar yay məktəbinin gənclərinin iştirakı ilə təşkil olunmuş tədbir oldu. Milli məclisin deputatı Musa Quliyev mövzu ilə əlaqədar mühazirəsi, gənclərin mövzu ətrafında çıxışları hər birimizin ürəyimizcə oldu. Bu cür şəraitin bizlər üçün yaradılmasına, diqqət və qayğıya görə YAP-ın rəhbərliyinə gənclər adından təşəkkürümüzü bildiririk və Azərbaycanımız naminə YAP-ın gəncləri olaraq əlimizdən gələni edəcəyimizə söz veririk.



**Asiman Hacıyev**




Yay məktəbi ərzində şahidi olduğum bir faktı qeyd etmək istərdim ki, bu günləri biz nəinki Bakımızla, Azərbaycanın bölgələrində yerləşən, gündən-günə çiçəklənən, inkişaf edən şəhərlərimizlə də öyünə bilərik. Məhz Qəbələ belə şəhərlərdən biridir. Partiyamızın təşkil etdiyi Yay məktəblərinin ən üstün tərəflərindən biri də biz gənclərin məktəb ərzində regionda yaşayan, fəaliyyət göstərən siyasi həmfikirlərimizlə daha da yaxından tanış olmağımızdır. Şübhəsiz ki, bu hal imkan verir ki, partiyamız gələcəkdə də daha çevik, daha operativ fəaliyyət göstərsin. Söz veririk ki, dünənin, bu günün və gələcəyin partiyası olan YAP-ı daim dəstəkləyəcək və hər bir zaman hamımızın tək və yeganə lideri İlham Əliyevin ətrafında sıx birləşəcəyik.

**Bəxtiyar Budaqlı**



Bu istirahət mənim yaddaşımda gözəl izlər buraxdı. Layihə çərçivəsində bizlər həm asudə vaxtımızı yaxşı keçirdik, həm də müxtəlif bölgələrdən olan gənclərlə münasibət qurduq, intellektual və əyləncəli yarışlarda iştirak etdik. Eyni zamanda, “Yay məktəbi”ndə partiyamızı təmsil edən deputatlar, eləcə də hökumət nümayəndələri bizlərin qonağı oldu. Onlarla müxtəlif mövzular ətrafında fikirlərimizi bölüşdük, gəncləri maraqlandıran suallar cavablandırıldı. Hesab edirəm ki, “Yay məktəbləri” gənclərimizin intellektual səviyyəsinin daha yüksəlməsi və asudə vaxtlarının səmərəli keçirilməsi baxımından əhəmiyyətli layihədir” və gələcəkdə də bu cür layihələrin iştirakçısı olmaq arzusundayıq.

**Ülkər Məmmədzadə**



Müxtəlif bölgələrdən düşərgədə iştirakedəngənclərbirneçəgünərzində proqram çərçivəsində intellektual və əyləncəli oyunlar oynadılar, müxtəlif təlimlərdə iştirak etdilər və gözəl diyarımız olan Qəbələnin maraqlı və əsrarəngiz yerləri ilə tanış oldular. Bu möhtəşəm layihənin əsas məqsədi gənclərin asudə vaxtının səmərəli keçirməklə yanaşı, müxtəlif regionlardan olan gənclər arasında şəbəkələşməni gücləndirməkdən ibarət idi. Azərbaycan gəncinə göstərdiyi qayğı və diqqətə görə Yeni Azərbaycan Partiyası Gənclər Birliyinə öz minnətdarlığımı bildirirəm.

**İrfan İsgəndərov**



Yeni Azərbaycan Partiyasının təşkil etdiyi Yay düşərgəsi Azərbaycanımızın bir çox müxtəlif bölgələrindən olan gəncləri bir araya toplamaqla dövlətimizin inkişafında gənclərin rolunu daha da gücləndirir. Yay məktəblərində təşkil edilmiş vətənpərvərlik mövzusunda olan intellektual oyunlar isə vətənimizi necə sevməli olduğumuzu və ona necə xidmət etməli olduğumuzu bir daha bizə xatırladır.

**Bayram Aslanov**

**ÜMUMMİLLİ LİDERİN XATİRƏSİNƏ EHTİRAMIMIZI BİLDİRDİK, ABİDƏSİ ÖNÜNƏ TƏR ÇİÇƏKLƏR QOYDUQ.**












**DÜNYADA ANALOQU OLMAYAN “UZUNÖMÜRLÜLƏR MUZEYİ”NDƏ OLDUQ.**







## "AZƏRBAYCAN QLOBAL MƏKANDA" - MARAQLI FİKİRLƏR SƏSLƏNDİ, DÜŞÜNCƏLƏR İFADƏ OLUNDU







## "İNTERNETDƏ SOSİAL ŞƏBƏKƏ VƏ GƏNCLİYİN BAXIŞI" - İNTERNETİN HƏYATIMIZDAKI MÜSBƏT VƏ MƏNFİ TƏSİRLƏRİNİ MÜZAKİRƏ ETDİK.









**“GƏNCLİK VƏ MÜASİRLİK” - PROBLEMLƏRİMİZDƏN DANIŞDIQ, MARAQLI FİKİR MÜBADİLƏSİ APARDIQ.**





## "NƏ, HARADA, NƏ ZAMAN" İNTELLEKTUAL OYUNUNDA HƏM YARIŞDIQ, HƏM BİLİKLƏRİMİZİ ARTIRDIQ.












## "AZƏRBAYCAN DÜNƏN, BU GÜN VƏ SABAH: HEYDƏR ƏLİYEV İDEYALARI ƏMƏLİ FƏALİYYƏTDƏ" - DİSKUSSİYALARDA HƏM DİNLƏDİK, HƏM FİKİRLƏRİMİZİ BİLDİRDİK.











**“SAĞLAM BƏDƏNDƏ SAĞLAM RUH” DEVİZİ ALTINDA SAĞLAMLIĞIMIZIN QAYĞISINA QALDIQ.**







**ASUDƏ VAXTIMIZI SƏMƏRƏLİ KEÇİRMƏYİ DƏ UNUTMADIQ.**





18-23 iyul Yay məktəbi çərçivəsində Lerik səfəri çox gözəl və möhtəşəm idi. Bu həm istirahət, həm dünya görüşünün artması, həm də maraqlı diskussiyalardan ibarət idi. Həqiqətən də məktəb oldu. Həm gözəl istirahət etdik, həm də öz fikirlərimizi bölüşdük. Gözəl təbiətin qoynunda istirahət mərkəzi. İnşallah belə gözəl səfərlər yenə olacaq. Amma mən də hər dəfə iştirakçı olmaq istəyirəm.



**Xanım Abdulova**

YAP GB-nin təşkil etdiyi Yay məktəbi mənə çox xoş təəssürat bağışladı. 5 günlük Yay məktəbi dövründə Lerik rayonunda olduqca xoş və mənalı istirahət günləri keçirdik. Qədim tarixə, əsrarəngiz təbiətə malik olan Lerik şəhəri bizdə xoş ovqat yaratdı, xüsusən respublikanın ayrı-ayrı bölgələrindən gəlmiş YAP fəal gəncləri ilə tanışlıq bizə yeni dostlar qazandırdı. Qəlbimizi dost fərəhi, həmfikir sevinci doldurdu. Həmin müddətdə keçirilən seminarlar Heydər Əliyev ideyalarını izah etmək baxımından çox əhəmiyyətlidir. Bu layihəni təşkil edən insanlara YAP gəncləri adından öz minnətdarlığımı bildirirəm.



**Rəşad Veyisov**



Mən, orada olan diskussiyalarda bizim gənclərimizin düşüncələrini diqqətlə dinlədikdə fikirləşirdim ki, həqiqətən də Azərbaycan gəncliyi hər şeyə qadirdir və istənilən sahədə bütün nailiyyətləri əldə etmək iqtidarındadırlar. Sadəcə olaraq hər bir gəncin öz sahəsi üzrə püxtələşməsi hər birimizin özündən asılıdır, bunun üçün hər bir insanın öz üzərində hər bir vəcdlə işləməsi vacibdir, Azərbaycanımızın xoş rifahı naminə bunu etməlidir. Mən də öz növbəmdə biliklərimi daim artıracağıma söz verirəm. Oradan xoş təəssüratlarla ayrılmışam, belə tədbirlərin davam etməsinin arzusundayam. Bu istiqamətdə əlimdən gələn köməkliyi etməyə hazıram.

**Rəsul Bayramov**

YAP-ın gənclər üçün təşkil etdiyi ən böyük və uğurlu layihələrindən olan “Yay məktəbi” gözləniləndən də yaxşı keçdi. Layihənin geniş proqramı bizə hörmətli millət vəkilləri ilə birgə ölkəmizin siyasi, iqtisadi, sosial və başqa sahələrində görülən işlər, əldə etdiyimiz nailiyyətlər haqqında müzakirələr aparmağa şərait yaratdı. Yay məktəbi sayəsində biz gənclər qurulan dostluqları indi daha da möhkəmləndiririk, sosial şəbəkələrdə fikir mübadiləsi aparmağa davam edirik. Yeni Azərbaycan Partiyasının Qış Məktəbi və YAP Gənclər Birliyinin digər layihələrini səbirsizliklə gözləyirik.



**Tahirə Axundova**



Əqidə və amalca eyni olan Azərbaycan gənclərinin davamlı olaraq "yay məktəblərində" bir araya gəlməsi, düşünürəm ki, gələcək üçün böyük nəticələr verəcək. Səbəb, ortaq siyasi istiqamətləri olan gənclərin fərdi deyil, daha effektiv nəticə verən toplum halında fəaliyyət göstərmələrinə zəmin yaratmasıdır. Məni ən çox qane edən nəticələrdən biri də gənclərin bu qəbildən olan tədbirlərdə insani, əxlaqi dəyərlərinin qabarıq şəkildə üzə çıxmasıdır. Ulu Öndərin kəlamında qeyd olunduğu kimi "Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir". Və məhz Yeni Azərbaycan Partiyası gənclərinin buna doğru addımladığına əminəm. Bunun üçün də "yay məktəbləri" bizim üçün yalnız yay deyil, eyni zamanda "həyat məktəbi" rolu oynadığına inanıram.

**Vüsalə Niftəliyeva**

dizayn:
ALF group
DESIGN